# Milli Məclisdə Özbəkistan nümayəndə heyəti ilə görüş keçirilib

Mayın 3-də Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli ölkəmizdə səfərdə olan Özbəkistan Ali Məclisi Senatının, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvü Sodikjon Turdiyevin rəhbərlik etdiyi Özbəkistan nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vitse-spiker Fəzail İbrahimli Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını Özbəkistan nümayəndə heyətinin üzvlərinə çatdırıb. O, qarşılıqlı səfərlərin və aparılan danışıqların əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb etdiyini söyləyib, bu səfərin Azərbaycan üçün əlamətdar günlərə - xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə əlaqədar silsilə tədbirlərin keçirildiyi bir zamana təsadüf etdiyini bildirib.

Vitse-spiker dövlətlərimiz və xalqlarımız arasında tarixən səmimi dostluq və qardaşlıq münasibətlərinin yarandığını deyib, Azərbaycanla Özbəkistan arasında ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd edib.

İki ölkə parlamentləri arasında əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyindən danışan vitse-spiker qanunvericilik orqanlarımızda fəaliyyət göstərən dostluq qrupları çərçivəsində əlaqələrin genişləndirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından önəmli olduğunu deyib. Fəzail İbrahimli Azərbaycanın Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış əzəli torpaqlarını azad etdiyini və öz ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb, hazırda işğaldan azad edilmiş ərazilərdə sürətlə həyata keçirilən quruculuq işlərindən danışıb.

Özbəkistan Ali Məclisi Senatının üzvü, Özbəkistanın qəhrəmanı, respublika veteranlarının ictimai fəaliyyətinin dəstəklənməsi üzrə "Nuraniy" Fondunun İdarə Heyətinin sədri, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvü Sodikjon Turdiyev ölkəmizlə bağlı xoş təəssüratlarını bölüşüb. O, Özbəkistanın Azərbaycanla əməkdaşlığın möhkəmləndirilməsində maraqlı olduğunu deyib, xalqlarımız arasında qədim tarixə malik əlaqələrdən bəhs edib.

Sodikjon Turdiyev Azərbaycanın türk dünyasının güclü dövlətlərindən biri olduğunu bildirərək, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətlərini xüsusi vurğulayıb. Bu günlərdə Özbəkistanda da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirin keçirildiyini deyən qonaq görkəmli dövlət xadimi Heydər Əliyevin Özbəkistan-Azərbaycan əlaqələrinin möhkəmlənməsində rolundan bəhs edib.

Qonaq parlamentlərarası münasibətlərin genişləndirilməsinin əhəmiyyətindən danışıb, parlament dostluq qrupları çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Söhbətdə Milli Məclisin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Cavanşir Paşazadə, Elman Nəsirov ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi, parlamentlərarası əlaqələrin inkişafı ilə bağlı fikirlərini açıqlayıblar.

Görüşdə Özbəkistan Ali Məclisi Nümayəndələr Palatasının sədr müavini, Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Alişer Kadırov, Özbəkistan Ali Məclisi Senatının komitə sədri, Azərbaycanla dostluq qrupunun üzvü Odiljon İminov, Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, səfirliyin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 4 may.- S.12.